**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№331/3** **18 iyun 2021-ci il**

**"Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihənin müzakirəsi haqqında**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.1-ci "Auditə dair qanunvericiliyinin təkmilləşdirilməsi" bəndinə əsasən tərtib edilmiş Plan-Proqramın 2-ci "Auditor təşkilatlarının və sərbəst auditorların peşə məsuliyyətinin icbari sığorta haqlarına dair qanunvericilikdə dəyişikliklərin edilməsi" bəndinin icrası ilə əlaqədar Palatanın Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsi (E.İbrahimov) tərəfindən təqdim edilmiş "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

1.1. "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihənin bir ay müddətində Auditorlar Palatasında fəaliyyət göstərən "Dəyirmi masa"da müzakirəsi təmin edilsin;

1.2. "Dəyirmi masa"da göstərilən irad və təkliflər nəzərə alınmaqla "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihə Auditorlar Palatasının Şurasında baxılmaq üçün təqdim edilsin.

2. Bu qərarın və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" layihənin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**